**Azərbaycan Respublikasının Energetika Nazirliyinin**
**Fəxri Fərmanı barədə**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

"Azərbaycan Respublikasının Energetika Nazirliyinin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2013-cü il tarixli 3 nömrəli Sərəncamının, "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanın icrası ilə əlaqədar

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Fəxri Fərmanı təsis edilsin.
2. Əmrə əlavə olunmuş Fəxri Fərman haqqında Əsasnamə təsdiq edilsin.
3. Fəxri Fərmanın təltif vərəqəsi (əlavə 1) təsdiq edilsin.
4. Energetika Nazirinin müavinləri, Aparatın rəhbəri və şöbə müdirləri, Nazirliyin strukturuna daxil olan *və tabeliyindəki qurumların* rəhbərləri bu əmrdən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsinlər. [1]

**Natiq Əliyev**
**Azərbaycan Respublikasının energetika naziri**

2 iyun 2014-cü il
№ 19

“Təsdiq edirəm”
Azərbaycan Respublikasının
energetika naziri
______________ N.Əliyev
02 iyun 2014-cü il

**Azərbaycan Respublikasının Energetika Nazirliyinin
Fəxri Fərmanı haqqında**

**ƏSASNAMƏ**

1. Fəxri Fərman Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən yanacaq-energetika sahəsində Beynəlxalq əməkdaşlığın genişləndirilməsi məqsədilə dövlətlərarası əlaqələrin qurulması və inkişafında, hüquq-müqavilə bazasının gücləndirilməsində, yüksək elmi-texniki nailiyyətlərin əldə olunmasında, təsərrüfatın və əqli fəaliyyətin təşkili, iqtisadiyyatın, yanacaq-energetika sahəsinin inkişafında, sosial sahədə, istehsalat fəaliyyətində və bu sahənin stimullaşdırılması və təkmilləşdirilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirilməsində xüsusi xidmətləri olan şəxslərin - rəhbərlərin, alimlərin, elmi işçilərin, dövlət qulluqçularının, mütəxəssislərin təltif olunması məqsədilə təsis olunur.

2. Respublikanın yanacaq-energetika kompleksində uzun müddət səmərəli fəaliyyət göstərmiş, xüsusi xidmətləri olan işçilər, dövlət qulluqçuları, alimlər və digər sahələrdə çalışan mütəxəssislər yubileyləri ilə əlaqədar Fəxri Fərmanla təltif oluna bilərlər.

3. Sonrakı yeni nailiyyətlərə görə işçilərin Fəxri Fərmanla təltif olunması əvvəlki təltifin verilmə vaxtından üç ildən tez olmayaraq həyata keçirilir.

4. Fəxri Fərmanla təltif olunma Nazir müavinlərinin, aparatın rəhbərinin, Nazirliyin strukturuna daxil olan *və tabeliyindəki* qurumların rəhbərlərinin təqdimatına və ya Nazirliyin Kollegiyasının qərarına əsasən Azərbaycan Respublikasının Energetika Nazirinin əmri ilə həyata keçirilir. daxil olan qurumların rəhbərləri tərəfindən təntənəli şəraitdə təqdim olunur. [2]

5. Fəxri Fərman nazir, nazir müavinləri və ya Nazirliyin strukturuna daxil olan qurumların rəhbərləri tərəfindən təntənəli şəraitdə təqdim olunur

6. Təltif olunanın əmək kitabçasında Fəxri Fərmanla təltif olunma barədə qeyd aparılır.

~~7. Fəxri Fərmanla təltif olunan şəxslər, Nazirliyin aparatının, yerli və digər qurumların smetasında mükafatlandırma üçün nəzərdə tutulan fondlardan birdəfəlik olaraq aylıq vəzifə maaşının 1 (bir) misli məbləğində, yanacaq-energetika kompleksinə daxil olan dövlət müəssisələrinin və səhmlərin nəzarət zərfi dövlətə məxsus olan müəssisələrin smetasında mükafatlandırma üçün nəzərdə tutulan fondlardan mükafatlandırıla bilər. Digər sahələrdə çalışan işçilərin Fəxri Fərmanla təltif olunduqdan sonra mükafatlandırılması bu sahələrin rəhbərlərinə Nazirlik tərəfindən tövsiyə olunur.~~ [3]

8. Fəxri Fərmanın dublikatı verilmir.

9. İşçilərin Fəxri Fərmanla təltif olunmasına rəhbərlik tərəfindən verilən təqdimatda aşağıdakılar qeyd olunmalıdır:

Soyadı, adı, atasının adı;
Anadan olduğu il;
Anadan olduğu yer;
Milliyyəti;

Vəzifəsi (ştat cədvəlinə uyğun olaraq) iş yeri (təşkilatın, müəssisənin, idarənin, şöbənin və sexin adını göstərməklə);
Təhsili;
Elmi dərəcəsi və rütbəsi;
Ünvanı;
Təltif olunanın xasiyyətnaməsi, ümumi iş stajı, o cümlədən həmin müəssisədə (təşkilatda) iş stajı;
Namizədin təltifə təqdim olunması ilə əlaqədar əmək kollektivinin (həmkarlar ittifaqı) keçirilən iclasının protokolunun nömrəsi və tarixi.
10. Fəxri Fərmanın təsviri:
Fəxri Fərman ağ vərəqli A3 formatlı qatlanmış qalın kağızdan ibarətdir; Fəxri Fərmanın qatlanmış vərəqinin sol tərəfində mərkəzdə yuxarıda Azərbaycan Respublikasının gerbinin rəngli təsviri əks olunur, aşağıda FƏXRİ FƏRMAN sözü yazılır;
Qatlanmış vərəqin sağ tərəfinin yuxarısında mərkəzdə AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ sözü yazılır;
AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ sözünün aşağısında təltif olunanın soyadı, adı, atasının adı yazılır;
Təltif olunanın soyadı, adı və atasının adından aşağıda Azərbaycan Respublikasının bayrağının rəngli təsviri əks olunur;
Bayraqdan aşağıda "RESPUBLİKANIN YANACAQ-ENERGETİKA KOMPLEKSİNİN İNKİŞAFINDA XÜSUSİ XİDMƏTLƏRİNƏ GÖRƏ FƏXRİ FƏRMANLA TƏLTİF OLUNUR" sözü yazılır;
Qatlanmış sağ vərəqin aşağısında sağ tərəfdə "Azərbaycan Respublikasının Energetika Naziri" sözü yazılır;
Fəxri Fərman qovluğa yerləşdirilir;
Qovluğun üz tərəfində mərkəzdə yuxarıda Azərbaycan Respublikasının gerbi əks olunur, gerbdən aşağıda Azərbaycan Respublikası Energetika Nazirliyi sözü yazılır və onun aşağısında FƏXRİ FƏRMAN sözü yazılır;
Fəxri Fərman qovluğun içərisinə bərkidilir.

11. Fəxri Fərmanla təltif olunmağa təqdim olunanların hər biri üçün əmrin əlavəsində göstərilən formada təltif olunma vərəqəsi doldurulur.

12. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunanların şəxsi uçotu onların işlədikləri müəssisə və təşkilatlarda, Nazirliyin Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsində aparılır. [4]

## ƏMRƏ EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVLƏRİN SİYAHISI

---

[1] 2026-cı il 8 aprel tarixli 3-15/3-2-156/2026 nömrəli Azərbaycan Respublikası energetika nazirinin Əmri ilə Əmrin 14-cü hissəsində "idarələrin" sözü "və tabeliyindəki qurumların" sözləri ilə əvəz edilmişdir.

[2] 2026-cı il 8 aprel tarixli 3-15/3-2-156/2026 nömrəli Azərbaycan Respublikası energetika nazirinin Əmri ilə "Azərbaycan Respublikasının Energetika Nazirliyinin Fəxri Fərmanı haqqında Əsasnamənin" 12-ci hissəsində "olan" sözündən sonra "və tabeliyindəki" sözləri əlavə edilmişdir.

[3] 2026-cı il 8 aprel tarixli 3-15/3-2-156/2026 nömrəli Azərbaycan Respublikası energetika nazirinin Əmri ilə "Azərbaycan Respublikasının Energetika Nazirliyinin Fəxri Fərmanı haqqında Əsasnamənin" 7-ci hissə ləğv edilmişdir.

[4] 2026-cı il 9 fevral tarixli 3-15/3-2-70/2026 nömrəli Azərbaycan Respublikası energetika nazirinin Əmri ilə “Azərbaycan Respublikasının Energetika Nazirliyinin Fəxri Fərmanı haqqında Əsasnamənin” 12-ci hissəsində “Dövlət qulluğu və kadrlar şöbəsində” sözləri “Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsində” sözləri ilə əvəz edilmişdir.